AZƏRBAYCAN RESPUBKLİKASININ

AUDİTORLAR PALATASI

AZƏRBAYCAN RESPUBLİKASI AUDİTORLAR PALATASININ FƏALİYYƏTƏ BAŞLAMASININ 30 İLLİYİ İLƏ ƏLAQƏDAR YUBİLEY TƏDBİRİ VƏ BEYNƏLXALQ ELMİ-PRAKTİKİ KONFRANS BARƏDƏ

H E S A B A T

Məsul şəxs:

İcraçı direktor *Səbuhi Gülməmmədov*

BAKI - 2026

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi ilə əlaqədar yubiley tədbiri və beynəlxalq elmi-praktik konfransın keçirilməsi barədə

Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyinin qeyd edilməsi ilə əlaqədar Auditorlar Palatası sədrinin "Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinin qeyd edilməsi barədə" 2025-ci il 26 avqust tarixli 10-1/3-3-25/2025 nömrəli Sərəncamı ilə Auditorlar Palatasında Təşkilat Komitəsi yaradılmış və 16 bənddən ibarət Tədbirlər Planı təsdiq olunmuşdur: Həmin Tədbirlər Planında 2026-cı il 16 sentyabr tarixində "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın keçirilməsi nəzərdə tutulmuşdur.

Nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi məqsədilə, Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi münasibətilə xarici tərəfdaşların iştirakı ilə beynəlxalq elmi-praktik konfransın və yubiley tədbirlərinin keçirilməsinə razılıq verməsi və bu tədbirlərin həyata keçirilməsinə dair Auditorlar Palatasına dəstək göstərilməsi üçün 2025-ci il 27 oktyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə 10-1/2-634/2025 nömrəli icazə xarakterli məktub göndərilmişdir.

Daha sonra 2025-ci il 10 dekabr tarixində Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyinin qeyd edilməsi ilə əlaqədar ilk öncə müvafiq dövlət qurumlarına, Palatanın üzv olduğu beynəlxalq və yerli peşəkar qurumlara və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumlarına yubileylə əlaqədar məlumat xarakterli məktubların, 2026-cı il 6-30 mart tarixlərində isə dəvət məktublarının hazırlanması və göndərilməsi təmin edilmişdir.

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyinin qeyd edilməsi ilə əlaqədar Tədbirlər Planında nəzərdə tutulmuş təşkilati tədbirlərdən biri də sənədli filmin hazırlanması olmuşdur və bu məqsədlə aşağıda adları qeyd olunan Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumların və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumlarının rəhbər şəxsləri və nümayəndələrindən videotəbrikləri də daxil olmaqla Auditorlar

Palatasının keçdiyi dövr üzrə “Auditorlar Palatası-30 il” adlı sənədli film hazırlanmışdır:

1. Beynəlxalq Mühasiblər Federasiyasının prezidenti Jean Bouquot
2. Avropa Mühasiblər və Auditorlar Federasiyasının prezidenti Salvador Marin
3. Estoniya Auditorlar Assosiasiyasının prezidenti Mart-Martin Arengu
4. İsrailin Sertifikatlaşdırılmış İctimai Mühasiblər İnstitutunun prezidenti Çen Şrayber
5. Gürcüstan Respublikasının Maliyyə Nazirliyi yanında Mühasibat uçotu, Hesabatlılıq və Auditə Nəzarət Xidmətinin rəhbəri David Mchedlizde
6. Gürcüstan Respublikasının Maliyyə Nazirliyi yanında Mühasibat uçotu, Hesabatlılıq və Auditə Nəzarət Xidmətinin Audit və Peşəkar Təhsil Nəzarəti departamentinin rəhbəri Tornike Dragnidze
7. Qazaxıstan Respublikasının Auditorlar Palatası Şurasının sədri Sapar Koşkimbaev
8. Qazaxıstan Respublikası Auditorlar Palatasının icraçı direktoru Akan Arıstan
9. Şimali Makedoniya Respublikasının Sertifikatlı Auditorlar İnstitutunun prezidenti Draqan Dimitrov

Tədbirlər Planına uyğun olaraq 500 nüsxədə “Auditorlar Palatası-30 il” və “Auditorlar Palatasına üzvlük” döş nişanları hazırlanmışdır.

Eyni zamanda Tədbirlər Planına uyğun olaraq konfransa sponsorluq etmələrinə dair auditor təşkilatları və sərbəst auditorlara 2026-cı il 23 fevral tarixində məktublar və seçim etmələri üçün platin, qızıl, gümüş, bürünc və digər sponsorluq paketləri göndərilmiş və nəticə olaraq aşağıdakı adları qeyd olunan 125 sərbəst auditor və auditor təşkilatları müxtəlif sponsorluq paketləri üzrə konfransa maddi dəstək göstərmişdir:

1. “A Audit and Consulting” MMC-nin direktoru Rüfət Əliyev
2. “ABAK-Az Crovve LTD” MMC-nin direktoru Zamin Hüseynov
3. “ABB AUDIT AND FINANCE” MMC-nin direktoru Balağa Bağırov
4. "AF Audit" MMC-nin direktoru Adil Vahabov
5. "AFR SERVICES CO” MMC-nin direktoru Emin Azayev
6. “Alfa-Audit" QSC-nin direktoru Vəli Musayev
7. "ALI GROUP CONSULTİNG" MMC-nin direktoru Arasta Əliyeva
8. "Analitik - Audit Konsaltinq” MMC-nin direktoru Abbasəli Qurbanov
9. “ANR Audit” MMC-nin direktoru Namiq Abbaslı
10. "A PLUS AUDİT" MMC-nin direktoru Azər Əliyev
11. "ASON AUDİT" MMC-nin direktoru Orxan Vəkilov
12. "ATC SERVICES" MMC-nin direktoru Orxan Rzayev
13. "ATF AUDİT" MMC-nin direktoru Yaqub Ağayev
14. “Audit Reporting" MMC-nin direktoru Yeganə Məmmədova
15. “Audit Target" MMC-nin direktoru Məmməd Məmmədov
16. “AUDİT.AZ” MMC-nin direktoru Adil İslamov
17. “AUDİT EXPERT TV" MMC-nin direktoru Vidadi Talıbov
18. “Azərbeynəlxalq audit xidməti” MMC-nin direktoru Misir Əhmədov
19. "AZ EKSPERT AUDIT" MMC-nin direktoru Nicat Məmmədzadə
20. “AZƏRİ AUDİT GROUP” MMC-nin direktoru Camal Təhməzov
21. “AZƏRİ AUDİT SERVİS” MMC-nin direktoru Elvin Rzayev

22. "AZƏRUÇOT" MMC-nin direktoru Eldar Təhməzov
23. “AZFAİR AUDİT COMPANY” MMC-nin direktoru Rəhman Abdullayev
24. "AZFİN AUDİT" MMC-nin direktoru İbadət Binyətov
25. “Azel - Audit” MMC-nin direktoru Elzadə Süleymanova"
26. “Baker Tilly Audit Azərbaycan QSC-nin direktoru Səyavuş Səfiyev
27. “BAKI HESABAT MƏRKƏZİ” MMC-nin direktoru Mehdi Babayev
28. “Baltik Kaspian Audit” MMC-nin direktoru Samir Əsədullayev
29. “BDO Azərbaycan” MMC-nin direktoru Yunis Salayev
30. "BERC AUDIT" MMC-nin direktoru Elnur Rəsulzadə
31. “BKR İŞIK Konsaltinq” MMC-nin direktoru Aysel Şahtaxtinskaya
32. “Bizcon Audit” MMC-nin direktoru Anar Bayramov
33. “Cavid-Audit" MMC-nin direktoru Şahbaz Məmmədov
34. “CAPİTAL AUDİT” MMC-nin direktoru Elçin Bəhmənov
35. “CƏFƏROĞLU AUDİT” MMC-nin direktoru Şəhla Rzalı
36. “CONSULTİNG GROUP” MMC-nin direktoru Elçin Əkbərov
37. “Davud Mamedov” MMC-nin direktoru Davud Məmmədov
38. “Deloitte &Touche” MMAC-nin direktoru Nuran Kərimov
39. "DELTA AUDİT" MMC-nin direktoru Elnur Səmədov
40. “ECONOMİC-CHA” MMC-nin direktoru Sevda Cəfərova
41. “Ekspert Finans Konsaltinq” MMC-nin direktoru Zöhrə Misiyafova
42. "ELVİ AUDİT FİNANS” MMC-nin direktoru Elxan İsmayılov
43. “ELİTE TAX MASTER” MMC-nin direktoru Camal Rəcəbov
44. "ENEM Audit and Consulting" MMC-nin direktoru Ülvi Həsənov
45. “Ernst & Yanq Holdinqs (SiAyEs) Bi.Vi.” şirkətinin Azərbaycan Respublikasındakı filialının idarəedici partnyoru İlqar Vəliyev
46. “F.N. Audit Servis” MMC-nin direktoru Fuad Əliyev
47. "FCHAİN AUDİT" MMC-nin direktoru Valid Hüseynov
48. "FİNANS AUDİT-M" MMC-nin direktoru Mübariz Məhərrəmov
49. "FINSTAB AUDİT" MMC-nin auditoru Yusif Yusifzadə
50. "FOUR REASON" MMC-nin direktoru Vüsal Qasımov
51. “Forum” MMC-nin direktoru Aydın Səttar
52. "From A to Z Services" MMC-nin direktoru Zahid Əliyev
53. "4 FİNANCE CONTROL" MMC-nin direktoru Telman Hüseynli
54. "GF AUDİT" MMC-nin direktoru Vüsal Səlimov
55. "GINZA AUDİT" MMC-nin direktoru Tunar Muxtarov
56. “Grant Thornton” MMC-nin Azərbaycan Respublikasındakı filialının direktoru Mohamed Farouk
57. “GÜVƏN AUDİT” MMC-nin direktoru Vüqar Mustafayev
58. “HESABAT” MMC-nin direktoru Rüfət Məmmədov
59. “HİMMARA AUDİT” MMC-nin təsisçisi Ziya Qurbanlı
60. “HN ECONOMY AND TAX SERVICES LLC” MMC-nin direktoru Gündüz Axundov
61. "İAS" MMC-nin direktoru Aqşin Əhmədov
62. “İntex Audit” MMC-nin direktoru Ruhin Əliyev
63. “INTERAUDİTSERVİCE” MMC-nin direktoru Anar Abbasov
64. “İNTERNATİONAL AUDİT” MMC-nin direktoru Zaur İsmayıllı
65. "Invest Finance" MMC-nin direktoru Anar Bayramov
66. “Keynes Fincance Group” MMC-nin direktoru Ülvi Abdullayev
67. “KH.J.A Audit-Consulting Xidməti” MMC-nin direktoru Xaləddin Əliyev
68. “KPMG Audit Azərbaycan” MMC-nin baş direktoru Vitaly Yakovlev
69. “L.B. Audit xidməti” MMC-nin direktoru Lamiyə Bayramova
70. “LŞ Audit” MMC-nin direktoru Fərhəddin Hüseynov
71. "LOCAL AUDIT" MMC-nin direktoru Nüşabə Heydərova
72. “M ənd J Konsaltinq” MMC-nin direktoru Elçin Cəfərov
73. “MBM AUDİT” MMC-nin direktoru Məhəmmədəli Bəşirli

74. “Moore Stephens Azerbaijan” MMC-nin direktoru Fariz Əhmədov
75. “Nexia Azerbaijan” QSC-nin direktoru Həsən Haqverdiyev
76. “NEXT AUDİT - KONSALTİNQ” MMC-nin direktoru Bəhlul Həsənov
77. "NİAC" MMC-nin direktoru Elşən İbadov
78. “NZA Audit” MMC-nin direktoru Nihad Axundov
79. "ONE CONSULTING GROUP" MMC-nin direktoru Ələddin Babayev
80. “Parker Russell Azerbaijan” MMC-nin direktoru Elnurə Abdinova
81. “PRAYSVOTERHAUSKUPERS AUDİT AZƏRBAYCAN” MMC-nin direktoru Fəxri Mustafayev
82. “PRİVATE AUDİT” MMC-nin direktoru Nazirə Əhmədova
83. "PROFESSİONAL FİNANCİAL EXPERTS" MMC-nin direktoru Rəşad Həsənov
84. “PROVICE” MMC-nin direktoru Nurlan Orucov
85. “Q.R.T. Audit” MMC-nin direktoru Cəmilə Qənizadə
86. “Reanda Azərbaycan” MMC-nin direktoru Rahim Manafov
87. “RSM Azerbaijan” MMC-nin direktoru Tural Məhərrəmov
88. “SAMADOV HÜQUQ VƏ AUDİT” MMC-nin direktoru Ruzi Səmədov
89. “SFA ORGANİZATİON GROUP” MMC-nin direktoru Mətanət İsmayılova
90. “SFAİ AZERBAİJAN” MMC-nin direktoru Svetlana Sabir
91. “SMART AUDİT” MMC-nin icraçı direktoru Emil Məmmədov
92. “SMART AUDİT AND CONSULTİNG” MMC-nin direktoru Ziyəddin Kərimov
93. “SME AUDIT” MMC-nin direktoru Sultan Mirzəyeva
94. “SR AUDİT SOLUTİONS” MMC-nin direktoru Səftər Vəlizadə
95. “TİD CONSULTING” QSC-nin direktoru Fidan Rzayeva
96. “TİGS AZERBAİJAN TİMP” MMC-nin direktoru Orxan Məhərrəmov
97. “UHY Audit” MMC-nin direktoru Təbriz Mirzəyev
98. “Xəzər-Audit 2020” MMC-nin direktoru Adıgözəl Musayev
99. “Yeni Zaman Audit” MMC-nin direktoru Hüseyn Cəbiyev
100. “YOUR INTERNATIONAL CONSULTING AND AUDIT” MMC-nin direktoru Vüsalə Nəcəfova
101. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Abbasov Yaşar
102. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Ağayev Akif
103. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Axundov Samir
104. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Bayramov Vəli
105. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Bənnayev Elxan
106. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Hüseynov Aydın
107. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Hüseynov Şəmşinur
108. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Kazımov Bəxtiyar
109. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Məmmədli Nicat
110. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Məmmədov Anar
111. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Paşayev Əmrah
112. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Qurbanov Ağabala
113. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Rzayeva Kəmalə
114. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Soltanov Qulu
115. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Süleyman İlham
116. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Şərifov Ərşad
117. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Şirinova Şahzadə
118. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Xıdırbəyli Cavid
119. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Yusifova Gülnarə
120. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Allahverdiyev Rəşad
121. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Əhmədov Hafiz
122. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Əkbərov Mübariz
123. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Əlizadə Nail

124. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Natiq Əliyev
125. Azərbaycan Respublikası Auditorlar Palatasının üzvü, sərbəst auditor Çingiz Abbasov

Tədbirlər Planında nəzərdə tutulmuş tədbirlər sırasında yubiley ilə əlaqədar "Fərdi jurnalist yazı müsabiqəsi"nin və "Ən yaxşı auditor assistenti və mütəxəssisi" və "Ən yaxşı gənc auditor" müsabiqələrinin keçirilməsi də olmuşdur. Bununla bağlı elan hazırlanmış və uyğun namizədlər müvafiq müsabiqələr üzrə müraciət etmişlər.

Auditorlar Palatası sədrinin Azərbaycan Respublikası Auditorlar Palatasının yaranmasının 30 illik yubileyi münasibəti ilə Auditorlar Palatasının ölkədə auditin inkişafına verdiyi töhfələri əks etdirən fərdi jurnalist yazı müsabiqəsinin keçirilməsi üzrə Müsabiqə Komissiyasının yaradılması barədə 2026-cı il 13 aprel tarixli 10-1/3-3-13/2026 nömrəli Sərəncamı və "Auditorlar Palatasının 30 illik yubileyi ilə əlaqədar "ən yaxşı auditor assistenti və mütəxəssisi"nin və "ən yaxşı gənc auditor"ların seçilməsinə dair Müsabiqə Komissiyasının yaradılması barədə" 2026-cı il 25 may tarixli 10-1/3-3-21/2026 nömrəli Sərəncamı təsdiq olunmuş və müvafiq müsabiqələr üzrə Müsabiqə Komissiyaları yaradılmışdır.

2026-cı il 3 sentyabr tarixində yubiley münasibəti ilə Auditorlar Palatasının ölkədə auditin inkişafına verdiyi töhfələri əks etdirən "Fərdi jurnalist yazı müsabiqəsi"nin və "Ən yaxşı auditor assistenti və mütəxəssisi" və "Ən yaxşı gənc auditor" müsabiqələrinin qaliblərinin mükafatlandırılması mərasimi keçirilmişdir.

Müsabiqənin nəticəsi Müsabiqə komissiyasının 2026-cı il 30 iyul tarixli 1 nömrəli iclas protokolu ilə rəsmiləşdirilmişdir.

Səsvermənin yekun nəticələrinə əsasən, Auditorlar Palatasının ölkədə auditin inkişafına verdiyi töhfələri əks etdirən fərdi jurnalist yazı müsaqəsində 13 nəfər namizəd iştirak etmişdir.

Qaydalara əsasən, müsabiqənin qalibləri səsvermə yolu ilə aşağıdakı kimi qiymətləndirilmişdir:

I yer: Səmədzadə Aytən Ziyad qızı – İqtisadiyyat qəzetinin redaktoru
Quliyeva Samirə Zahir qızı – AZƏRTAC-ın aparıcı müxbiri

II yer: Türbəndəzadə Tuncay İlyas oğlu – Report İnformasiya Agentliyinin müxbiri
Cəfərli Hənifə Alıhüseyn oğlu – İ.e.d., Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Maliyyə və audit" kafedrasının professoru

III yer: Kaşiyeva Flora Şamil qızı – Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) "Maliyyə və audit" Kafedrasının müəllimi, iqtisad elmləri namizədi, dosent
Aslanova Yaqut Ağaşah qızı – "İki sahil" qəzetinin müxbiri
Camalov Elvin Mehman oğlu – Baki-baku.az saytının müxbiri

Quliyeva Nurlanə Böyük Ağa qızı – “The Region Plus” jurnalının İqtisadiyyat Departamentinin rəhbəri, redaktor

Bunlardan əlavə, müsabiqə qaydalarına uyğun olaraq 5 nəfər yazı müəllifinə – Nəsirli Akif Sovet oğlu – “Bakı-Xəbər” qəzetinin müxbirinə, Məmmədov Yaşar Əzimaga oğlu – Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İqtisadiyyat İnstitutunun “Monetar və fiskal tənzimləmə problemləri” şöbəsinin müdirinə, Sədirova Fərqanə Allahverdi qızı – “Vergilər” qəzetinin müxbirinə, Qasımova İlhamə Valeh qızı – Bakı Biznes Universitetinin müəlliminə, Rəmixanova Sərvanə Ədalət qızı – “Valyuta.az” informasiya portalının müxbirinə həvəsləndirici mükafat verilmişdir.

Palatanın rəhbərliyi tərəfindən müsabiqənin I,II və III yerlərin qaliblərinə diplomlar və digər iştirakçılarına təşəkkürnamələr təqdim edilmişdir.

“Ən yaxşı auditor assistenti və mütəxəssisi” müsabiqəsinin nəticələrinə əsasən “Ən yaxşı auditor assistenti və mütəxəssisi” nominasiyası üzrə:

I yer – “Deloitte & Touche” MMAC-nin mütəxəssisi Əliyeva Tünzalə Sadiq qızı;

II yer – “Smart Audit” MMC-nin baş mütəxəssisi Xəlilova Aytən Xanlar qızı və “Azəruçot” MMC-nin auditor assistenti Calalov Abdulla Saleh oğlu;

III yer – “KPMG Audit Azərbaycan” MMC-nin 2-ci dərəcəli auditor assistenti İbadzadə Fatimə Qasım qızı;

“A Plus Audit” MMC-nin auditor assistenti Əlisoy Nərmin Azər qızı;

“KPMG Audit Azərbaycan” MMC-nin 2-ci dərəcəli auditor assistenti Yusifli Eyvaz Səməd oğlu olmuşdur.

“Ən yaxşı gənc auditor” müsabiqəsinin qalibləri isə aşağıdakılar olub:

I yer – “MBM Audit” MMC-nin direktor-auditoru Bəşirli Məhəmmədəli Şərif oğlu;

II yer – sərbəst auditor Cəbrizadə Qulu Namiq oğlu;

III yer – “Azel-Audit” MMC-nin auditoru Qırxıyev Kənan Arif oğlu.

Müsabiqə qaliblərinə diplomlar və hədiyyə kartları təqdim olunmuşdur.

Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi ilə əlaqədar müsabiqəsinin qaliblərinin müəyyən edilməsi barədə məlumat 2026-cı il 3 sentyabr tarixində AZƏRTAC tərəfindən yayımlanmışdır.

Tədbirlər Planına uyğun olaraq 18 yerli qurumlardan, 18 Auditorlar Palatasının üzv olduğu beynəlxalq peşəkar qurumlardan və əməkdaşlıq etdiyi xarici ölkələrin audit və mühasibatlıq qurumınlardan təbriklər toplanılmış və 6 bölmədən ibarət olan “Auditorlar Palatası-30 il” kitabında nəşr olunmuşdur.

Yubiley münasibətilə həyata keçirilən əhəmiyyətli tədbirlərdən biri də 2026-ci il 15 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının icraçı direktoru Səbuhi

Gülməmmədovun, daxili auditot Şəfiqə Əsgərovanın və Haqsız rəqabətə qarşı mübarizə, keyfiyyətə kənar nəzarət və beynəlxalq əlaqələr idarəsinin rəis müavini Afiqə Bayramovanın "İqtisadiyyat" qəzetində "30 ilin etibarı: Auditorlar Palatasının inkişaf yolu və Azərbaycanda müstəqil audit institutunun formalaşması" başlıqlı birgə məqaləsinin dərc olunması olmuşdur.

Digər önəmli tədbir Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illiyi münasibətilə 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubiley tədbiri və "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfrans keçirilməsi olmuşdur.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Fəxri Xiyabandakı məzarını ziyarət edib, Ulu Öndərin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsini ehtiramla yad ediblər. Daha sonra yubiley tədbirinin rəsmi açılışı olub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib və Auditorlar Palatasının 30 illik fəaliyyətinə həsr olunmuş sənədli film nümayiş etdirilib.

Yubiley tədbirində açılış nitqi ilə Auditorlar Palatasının sədri, professor Vahid Novruzov çıxış edib. Palata sədri vurğulayıb ki, Azərbaycanda müstəqil audit institutunun formalaşmasının hüquqi əsası Ulu Öndər Heydər Əliyevin 1994-cü il 16 sentyabr tarixində imzaladığı "Auditor xidməti haqqında" Qanunla qoyulub. Ulu Öndər Heydər Əliyevin müstəqil auditin ölkənin bazar iqtisadiyyatına keçidi, maliyyə şəffaflığının və hesabatlılığın təmin olunması baxımından mühüm institut kimi formalaşdırılmasına yönəlmiş uzaqgörən siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni tarixi mərhələnin tələblərinə uyğun olaraq ardıcıl və məqsədyönlü şəkildə davam etdirilir.

Vahid Novruzov Azərbaycan Respublikası Prezidentinin Administrasiyası tərəfindən hörmətli sədrimizə etimad göstərilərək Auditorlar Palatasının 30 illik yubileyi münasibətilə "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına ünvanladığı təbrik məktubunu tədbir iştirakçılarına çatdırıb və qeyd edib ki, bu təbrik məktubu Azərbaycan auditinin inkişafına dövlət rəhbərliyi səviyyəsində göstərilən diqqət və dəstəyin növbəti təzahürüdür.

Möhtərəm Prezidentimizin konfrans iştirakçılarına olan müraciəti xarici qonaqlar tərəfindən də böyük ruh yüksəkliyi və minnətdarlıqla qarşılanmışdır.

O, həmçinin Palatanın əməkdaşlarının və üzvlərinin "Tərəqqi" medalı ilə təltif edilməsinə görə Azərbaycan Respublikasının Prezidentinə Auditorlar Palatası adından dərin təşəkkürünü və minnətdarlığını bildirib. Qeyd edib ki, bu yüksək dövlət təltifi Azərbaycan auditinin inkişafına xidmət edən çoxillik əməyin və peşəyə sədaqətin layiqincə qiymətləndirilməsi olmaqla, auditorlar üçün həm böyük şərəf, həm də gələcək fəaliyyətə mühüm stimul təşkil edir.

Auditorlar Palatasının yubileyi münasibətilə auditor fəaliyyətinin inkişafında xidmətlərinə görə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 2026-ci il 16 sentyabr tarixli "Azərbaycan Respublikası Auditorlar Palatasının üzvlərinin "Tərəqqi" medalı ilə təltif edilməsi haqqında" Sərəncamı ilə Palatanın 15 nəfər əməkdaşı və üzvü "Tərəqqi" medalı təltif edilmişdir.

Vahid Novruzov çıxışında Auditorlar Palatasının 30 illik fəaliyyət yoluna nəzər salaraq, bu dövr ərzində Azərbaycanda müstəqil audit institutunun formalaşması, inkişafı və beynəlxalq audit məkanına inteqrasiyası istiqamətində həyata keçirilmiş mühüm tədbirləri diqqətə çatdırıb. Qeyd olunub ki, ötən üç onillik ərzində müstəqil audit ölkənin bazar yönümlü iqtisadi strukturları sistemində möhkəm yer tutaraq, müstəqil və qərəzsiz maliyyə nəzarəti forması kimi özünü təsdiqləyib, maliyyə şəffaflığının və hesabatlılığın təmin edilməsində mühüm rol oynayıb.

Çıxışda Auditorlar Palatasının fəaliyyətində beynəlxalq təcrübənin tətbiqinə və peşəkar əməkdaşlığın genişləndirilməsinə xüsusi diqqət yetirildiyi vurğulanıb. Bildirilib ki, 2010-cu ildən etibarən Beynəlxalq Audit Standartlarının tətbiqinə başlanılması, audit xidmətinin inkişafına dair konsepsiyaların hazırlanaraq reallaşdırılması, Beynəlxalq Mühasiblər Federasiyasına (IFAC) və Avropa Mühasiblər və Auditorlar Federasiyasına (EFAA) tamhüquqlu üzvlüyün təmin edilməsi, eləcə də dünyanın 40-dan artıq ölkəsinin audit və mühasibatlıq qurumları ilə işgüzar əlaqələrin qurulması Azərbaycan auditinin beynəlxalq peşə məkanında mövqeyinin möhkəmlənməsinə mühüm töhfə verib.

Eyni zamanda Palata sədri qeyd edib ki, audit peşəsinin yeni inkişaf mərhələsində qarşıda mühüm strateji vəzifələr dayanır. Onun sözlərinə görə, müasir dövrdə audit fəaliyyətinin yalnız uyğunluğun qiymətləndirilməsi və nəzarət funksiyası ilə məhdudlaşmayan, proaktiv və strateji yanaşmaya əsaslanan institusional modelə transformasiyası, peşə etikasının və ictimai etimadın daha da möhkəmləndirilməsi, auditorların müasir kompetensiyalarının inkişaf etdirilməsi, tədris və sertifikasiya proqramlarının yeni çağırışlara uyğun təkmilləşdirilməsi xüsusi əhəmiyyət daşıyır. Vahid Novruzov, həmçinin, mentorluq mədəniyyətinin formalaşdırılmasının və nəsillərarası peşəkar bilik və təcrübə mübadiləsinin sistemli şəkildə inkişaf etdirilməsinin audit peşəsinin davamlı inkişafının mühüm şərtlərindən olduğunu vurğulayıb.

Tədbir Azərbaycanda audit institutunun üç onillik inkişaf yolunun, əldə edilmiş nailiyyətlərin və qarşıda duran strateji vəzifələrin müzakirə olunduğu nüfuzlu beynəlxalq platformaya çevrilib. Azərbaycanla yanaşı Gürcüstan, İsrail, Qazaxıstan, Latviya, Litva, Moldova, Özbəkistan, Pakistan, Rusiya və Türkiydən dövlət qurumlarının, peşəkar audit və mühasibatlıq təşkilatlarının, elm və təhsil müəssisələrinin nümayəndələri, auditorlar, ekspertlər və vətəndaş cəmiyyəti institutlarının təmsilçiləri iştirak ediblər.

Tədbirdə Auditorlar Palatasının 30 illik fəaliyyəti münasibətilə beynəlxalq və yerli səviyyədə təbriklər səsləndirilib. Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibbəyli, Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Azərbaycan İqtisadçılar İttifaqının sədri, akademik Ziyad Səmədzadə, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədr müavini Musa Mirzəyev, Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru Ədalət Muradov, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Əlibala Məhərrəmzadə, Beynəlxalq Mühasiblər Federasiyasının (IFAC) prezidenti Jean Bouquot, Avropa Mühasiblər və Auditorlar Federasiyasının (EFAA) prezidenti Salvador Marin, Türkiyə Respublikası İctimai Nəzarət, Mühasibat və Audit Standartları Qurumunun (KGK) vitse-prezidenti Hayrettin Kurt, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) prezidenti Muhammed Samiullah Siddiqui, Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun (ICAP) vitse-prezidenti Jehanzeb Amin, Türkiyə Sertifikatlaşdırılmış Mühasiblər Palataları Birliyinin (TÜRMOB) prezidenti İrfan Huseyin Yıldız, İsrailin İctimai Sertifikatlaşdırılmış Mühasiblər İnstitutunun (ICPAI) prezidenti Chen Schreiber, Qazaxıstan Respublikası Auditorlar Palatasının Şurasının sədri Sapar Koşkimbayev, Özbəkistan Milli Mühasiblər və Auditorlar Assosiasiyasının Şurasının sabiq sədri Minovar Tulaxocayeva, Rusiya Federasiyasının Peşəkar Mühasiblər, Maliyyə Menecerləri və İqtisadçıların Milli İnstitutunun fəxri prezidenti, professor Dmitriy Yakovenko, Latviya Sertifikatlaşdırılmış Auditorlar Assosiasiyasının (LACA) icraçı direktoru Anita Mihejeva, Litva Auditorlar Palatasının prezidenti Vaida Kacergiene, Özbəkistan Auditorlar Palatası Şurasının sədri Nemətulla Kərimov, Gürcüstan Respublikasının Maliyyə Nazirliyi yanında Mühasibat uçotu, hesabatlılıq və auditə nəzarət xidmətinin rəhbəri David Mchedlidze , Gürcüstan Mühasiblər Birliyinin prezidenti Tata Beridze yubiley münasibətilə təbrik çıxışları ediblər.

Yubiley tədbirinin mühüm nəticələrindən biri Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin yaradılmasına dair Sazişin imzalanması olub. Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistanın müvafiq peşə tənzimləyici qurumları arasında imzalanmış Saziş türk dövlətləri məkanında mühasibat və audit peşəsinin inkişafı istiqamətində əməkdaşlığın yeni institusional mərhələyə keçidini nümayiş etdirib. Bu təşəbbüs peşə tənzimlənməsi və audit sahəsində təcrübə mübadiləsinin genişləndirilməsi, metodoloji yanaşmaların inkişaf etdirilməsi və qarşılıqlı əməkdaşlığın daha sistemli əsasda qurulması baxımından xüsusi əhəmiyyət daşıyır.

Tədbir çərçivəsində Azərbaycan Respublikası Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında yenilənmiş Əməkdaşlıq Memorandumu da imzalanıb.

Yubiley tədbirindən sonra "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfrans öz işinə başlayıb. Konfransın məruzə proqramı auditin institusional islahatlarda rolundan tutmuş süni intellekt və rəqəmsal transformasiyaya, maliyyə kəşfiyyatından vergi inzibatçılığına, daxili nəzarətdən audit keyfiyyətinə kənar nəzarətə qədər geniş spektri əhatə edib.

Azərbaycan Respublikası Milli Məclisinin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov "Auditin inkişafı institusional islahatların mühüm istiqaməti kimi", Türkiyə Respublikası İctimai Nəzarət, Mühasibat və Audit Standartları Qurumunun (KGK) vitse-prezidenti Hayrettin Kurt "Türkiyə qanunvericiliyində ictimai nəzarət rejimi", Türkiyə Sertifikatlaşdırılmış Mühasiblər Palataları Birliyinin (TÜRMOB) prezidenti İrfan Huseyin Yıldız "Etimadın memarları: Tənzimləmə və texnologiyada güclü transformasiya fonunda auditin 30 illik inkişaf təcrübəsi və maliyyə məsləhətçiliyi peşəsinin yeni perspektivləri", Pakistanın İmtiyazlı Mühasiblər İnstitutunun prezidenti Samiullah Siddiqui "Süni intellekt və rəqəmsal transformasiya dövründə audit", İsrailin İctimai Sertifikatlaşdırılmış Mühasiblər İnstitutunun prezidenti Chen Schreiber "Süni intellektin mühasibatlıq və audit peşəsinə təsiri", Litva Auditorlar Palatasının prezidenti Vaida Kacergiene "Müasir dövrdə dayanıqlı audit: strateji etimadın formalaşdırılması naminə normativ tələblərə uyğunluq və maraqlı tərəflərin gözləntiləri arasında balans", Özbəkistan Milli Mühasiblər və Auditorlar Assosiasiyasının Şurasının sabiq sədri Minovar Tulaxocayeva "Süni intellektin yaranması, formalaşması və inkişafı – Özbəkistanda mühasibat uçotu və audit sisteminin ayrılmaz tərkib hissəsi kimi", Rusiya Federasiyasının Peşəkar Mühasiblər, Maliyyə Menecerləri və İqtisadçıların Milli İnstitutunun fəxri prezidenti, professor Dmitriy Yakovenko "Etimadı formalaşdıran təməl kimi təşkilatın daxili nəzarət və audit sistemi", Özbəkistan Auditorlar Palatası Şurasının sədri Nemətulla Kərimov "Audit peşəsinə etimadın artırılmasında əsas alətlər kimi keyfiyyətə kənar nəzarət və auditor təşkilatlarının reytinqi", Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Daxili nəzarət və audit şöbəsinin müdiri Heybət İmanov "Sosial müdafiə sahəsində audit və şəffaflıq: elektronlaşan xidmətlər və ictimai etimadın formalaşan yeni modeli", Azərbaycan Respublikası Mərkəzi Bankının Daxili audit departamentinin direktor müavini Nahid Rzayev "Daxili audit sahəsində gələcəyə baxış: perspektiv inkişaf istiqamətləri, texnoloji yeniliklər və gözləntilər", Gürcüstan Respublikasının Maliyyə Nazirliyi yanında Mühasibat Uçotu, Hesabatlılıq və Auditə Nəzarət Xidmətinin Audit və Peşəkar Təhsilə Nəzarət Departamentinin rəhbəri Tornike Dzagnidze "Gürcüstanda auditin tənzimlənməsi sistemi və

peşəkar təşkilatların rolu”, Gürcüstan Mühasiblər Birliyinin prezidenti Tata Beridze “İntellektual audit dövrü: qlobal inkişaf dövründə Yeni İpək Yolu üzrə transsərhəd uçot”, Özbəkistanın “TTT-Audit” şirkətinin Baş direktoru Mahammad Botirov “Özbəkistanda auditin təkamülü: institusional islahatlardan strateji tərəfdaşlığa, rəqəmsallaşmaya və beynəlxalq standartlara doğru”, Gürcüstan Mühasiblər, Auditorlar və Məsləhətçilər Cəmiyyətinin icraçı direktoru Georgi Rusiashvili “Mühasiblər üçün süni intellektin yaratdığı problemlər və süni intellektin əvəz edə bilmədiyi insan bacarıqları”, Moldova Peşəkar Mühasiblər və Auditorlar Assosiasiyasının üzvü Georgeta Covaliov-Rusu “Audit əməliyyatı və ya süni intellekt və digər macəralar: Peşənin rəqəmsal transformasiyasına praktiki baxış”, “KPMG Audit Azerbaijan” MMC-nin Audit direktoru Mələk Abbaslı “Audit etimad infrastrukturunun əsası kimi: dəyişən iqtisadiyyatda auditorların inkişaf edən rolu”, Qazaxıstan Respublikası Auditorlar Palatasının üzvü, “Finex-Standart” MMC-nin filialının direktoru Rita Espenbetova “Davamlılıq Standartları MHBS S1/S2: Auditorlar, BMD və Direktorlar Şurası üçün hansı dəyişikliklər” və Bakı Dövlət Universitetinin “Dünya iqtisadiyyatı” kafedrasının dosenti, iqtisad elmləri namizədi Bəxtiyar İsmayılov “Müasir auditin uyğunluq nəzarətindən strateji tərəfdaşlıq və ictimai etimada transformasiyası” mövzularında çıxış ediblər.

Konfransın məruzə və müzakirələrində audit peşəsinin müasir çağırışlara uyğun inkişafı, texnoloji yeniliklərin və süni intellektin audit fəaliyyətinə tətbiqi, data əsaslı yanaşmaların genişləndirilməsi, peşəkar standartların qorunması, keyfiyyətə nəzarətin gücləndirilməsi və beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi məsələləri önə çəkilib.

Yubiley tədbiri və beynəlxalq elmi-praktik konfrans Azərbaycan auditinin 30 illik inkişaf yolunun yekunlarının qiymətləndirilməsi ilə yanaşı, peşənin gələcək inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi baxımından da əhəmiyyətli platforma olub. Tədbirdə aparılan müzakirələr göstərib ki, yeni dövrdə audit fəaliyyətinin inkişafı rəqəmsal texnologiyaların və süni intellektin imkanlarından səmərəli istifadəni, yüksək peşəkar standartların qorunmasını, audit keyfiyyətinin yüksəldilməsini və beynəlxalq əməkdaşlığın daha da genişləndirilməsini tələb edir.

Tədbirə Azərbaycan Respublikası Auditorlar Palatasının sədri Vahid Novruzov yekun vurub.

Tədbirin yekununda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə müraciət qəbul olunub.

2026-cı il 17 sentyabr tarixində isə Auditorlar Palatasının mütəxəssisləri ilə xarici ölkələrin audit və mühasibat qurumlarının nümayəndələri arasında auditin normativ hüquqi bazasına, metodiki təminatına, təşkili və tənzimlənməsinə dair təcrübə mübadiləsinin aparılmışdır.

Tədbir ölkənin qabaqcıl KİV-də geniş işıqlandırılmışdır. O cümlədən, konfransın

keçirilməsi ilə bağlı məlumat hazırlanaraq Palatanın internet səhifəsində və sosial şəbəkələrində yerləşdirilmişdir.

Konfrans başa çatdıqdan sonra Auditorlar Palatası sədrinin 2026-cı il 18 sentyabr tarixli 10-1/3-3-34/2026 nömrəli "2026-cı il 16 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və "Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol" mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə" sərəncamı və müvafiq tədbirlərin həyata keçirilməsi üçün Tədbirlər Planı təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Auditorlar Palatası
sədrinin 2026-cı il 18 sentyabr tarixli 10-1/3-3-34/2026
nömrəli sərəncamı ilə təsdiq edilmişdir

2026-cı ilin 16 sentyabr tarixində keçirilmiş Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunlarına dair

T Ə D B İ R L Ə R P L A N I

	Tədbirin adı	İcra müddəti	Məsul şəxslər	Qeyd
1.	«Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətin göndərilməsi və Palatanın saytında yerləşdirilməsi	Üç gün müddətində	Rəhbərlik A.Bayramova	
2.	Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə hesabatın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi	Üç gün müddətində	S.Gülməmmədov F.Qarayev	
3.	2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına göndərdiyi təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması	İki həftə müddətində	Q.Əhmədov Ə.Aslanov	
4.	Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi ilə əlaqədar əməkdaşların və üzvlərin fərqləndirilməsinə dair təkliflərin hazırlanması və rəhbərliyə təqdim edilməsi	1 ay müddətində	S.Gülməmmədov	
5.	Palatanın əməkdaşlarına və üzvlərinə Dövlət təltiflərinin, təşəkkürnamələrin və digər təltiflərin	2026-cı il dekabr ayı	S.Gülməmmədov F.Qarayev	

	müvafiq şəxslərin iştirakı ilə təqdim edilməsi	III ongünlüyündə	Z.Almazov M.Hüseynova N.İsmayılova	
6.	Tədbirlərin nəticələri ilə bağlı KİV-də və televiziyalarda yayımlanan məlumatların, fotoşəkillərin, filmin və video materialların toplanması, Palatanın internet səhifəsində rubrikanın yaradılması və həmin səhifədə yerləşdirilməs	Bir həftə müddətində	F.Qarayev A.Bayramova Z.Almazov	
7.	Tədbirlərdə iştirak edən xarici qurumların nümayəndələrini müşayiət edən Palata üzvlərinə və əməkdaşlarına təşəkkür məktubunun göndərilməsi	Bir həftə müddətində	S.Gülməmmədov	
8.	Tədbirlərin keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvlərinə təşəkkür məktubunun göndərilməsi	Bir həftə müddətində	S.Gülməmmədov M.Osmanova	
9.	Tədbirlərin keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvlərinin şəxsi işlərinə müvafiq qeydlərin aparılması	On gün müddətində	V.Cavadov N.İsmayılova	
10.	Tədbirlərin işində iştirak edən yerli və xarici məruzəçilərə minnətdarlıq məktubunun göndərilməsi	On gün müddətində	A.Bayramova	
11.	Tədbirlərlə bağlı məlumatların (ingilis və rus dillərində), foto və video materialların tədbirdə iştirak edən xarici nümayəndələrə çatdırılması	İki həftə müddətində	A.Bayramova	
12.	Tədbirlərin fotoşəkillərinin və video materiallarının elektron qaydada Palatanın internet səhifəsində yerləşdirilməsi	On gün müddətində	A.Bayramova Z.Almazov	
13.	Tədbirlərlə bağlı materialların, məruzə və təqdimatların, foto və video çəkilişlərin iki nüsxədə Palatanın arxivinə təhvil verilməsi	İki həftə müddətində	F.Qarayev	
14.	Konfransda çıxış edən məruzəçilərin məruzə və təqdimatlarının toplanması	İki həftə müddətində	F.Qarayev	
15.	Konfransa təqdim olunan məruzə və tezislərdəki təkliflər təhlil edilərək onların həyata keçirilməsi üzrə tövsiyələrin hazırlanıb rəhbərliyə təqdim olunması	Bir ay müddətində	Q.Əhmədov	
16.	Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin yaradılmasına dair imzalanmış Nizamnamənin müddəalarından irəli gələn işlərin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması	Bir ay müddətində	Ə.Aslanov V.Sərdarov A.Bayramova	
17.	Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin fəaliyyətə başlaması üçün təkliflər paketinin hazırlanması və baxılması üçün rəhbərliyə təqdim edilməsi	Bir ay müddətində	Ə.Aslanov V.Sərdarov A.Bayramova	
18.	Azərbaycan Respublikası Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında yenilənmiş Əməkdaşlıq Memorandumunun müddəalarından irəli gələn işlərin icrasına dair Tədbirlər Planının layihəsini hazırlayıb Palatanın	Bir ay müddətində	Q.Əhmədov A.Bayramova	

	rəhbərliyinə təqdim edilməsi			
19.	Azərbaycan Respublikasının Auditorlar Palatası - 30 il kitabının paylanılması ilə əlaqədar müvafiq siyahının hazırlanması və ünvanlara çatdırılması	İki həftə müddətində	M.Hüseynova	

Tədbirlər Planına uyğun olaraq aşağıdakı bəndlər icra olunmuşdur:

1. «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə ünvanlanmış müraciətin göndərilməsi və Palatanın saytında yerləşdirilməsi – 2026-cı il 17 sentyabr tarixində icra olunmuşdur.

2. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyinə həsr edilmiş tədbirin və «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın yekunları barədə hesabatın Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına göndərilməsi - 2026-cı il 21 sentyabr tarixində icra olunmuşdur.

3. Tədbirlərin nəticələri ilə bağlı KİV-də və televiziyalarda yayımlanan məlumatların, fotoşəkillərin, filmin və video materialların toplanması, Palatanın internet səhifəsində rubrikanın yaradılması və həmin səhifədə yerləşdirilməsi - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.

4. Tədbirlərdə iştirak edən xarici qurumların nümayəndələrini müşayiət edən Palata üzvlərinə və əməkdaşlarına təşəkkür məktubunun göndərilməsi - 2026-cı il 21 sentyabr tarixində icra olunmuşdur.

5. Tədbirlərin keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvlərinə təşəkkür məktubunun göndərilməsi - 2026-cı il 23 sentyabr tarixində icra olunmuşdur.

6. Tədbirlərin keçirilməsinə sponsorluq edən Auditorlar Palatasının üzvlərinin şəxsi işlərinə müvafiq qeydlərin aparılması - 2026-cı il 29 sentyabr tarixində icra olunmuşdur.

7. Tədbirlərin işində iştirak edən yerli və xarici məruzəçilərə minnətdarlıq məktubunun göndərilməsi - 2026-cı il 21 sentyabr tarixində icra olunmuşdur.

8. Tədbirlərlə bağlı məlumatların (ingilis və rus dillərində), foto və video materialların tədbirdə iştirak edən xarici nümayəndələrə çatdırılması - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.

9. Tədbirlərin fotoşəkillərinin və video materiallarının elektron qaydada Palatanın internet səhifəsində yerləşdirilməsi - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.

10. Tədbirlərlə bağlı materialların, məruzə və təqdimatların, foto və video çəkilişlərin iki nüsxədə Palatanın arxivinə təhvil verilməsi - 2026-cı il 02 oktyabr tarixində icra olunmuşdur.

11. Konfransda çıxış edən məruzəçilərin məruzə və təqdimatlarının toplanması - 2026-cı il 22 sentyabr tarixində icra olunmuşdur.

12. Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin yaradılmasına dair imzalanmış Nizamnamənin müddəalarından irəli gələn işlərin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması – 2026-cı il 01 oktyabr taixində icra olunmuşdur.

13. Türk Dövlətlərinin Mühasibat və Audit Peşə Tənzimləyici Qurumları Birliyinin fəaliyyətə başlaması üçün təkliflər paketinin hazırlanması və baxılması üçün rəhbərliyə təqdim edilməsi - 2026-cı il 02 oktyabr taixində icra olunmuşdur.

14. Azərbaycan Respublikasının Auditorlar Palatası - 30 il kitabının paylanılması ilə əlaqədar müvafiq siyahının hazırlanması və ünvanlara çatdırılması – 2026-cı il 07 oktyabr tarixində icra olunmuşdur.

15. Azərbaycan Respublikası Auditorlar Palatası ilə Pakistanın İmtiyazlı Mühasiblər İnstitutu (ICAP) arasında yenilənmiş Əməkdaşlıq Memorandumunun müddəalarından irəli gələn işlərin icrasına dair Tədbirlər Planının layihəsini hazırlayıb Palatanın rəhbərliyinə təqdim edilməsi - 2026-cı il 08 oktyabr taixində icra olunmuşdur.

Tədbirlər Planında icrası davam etdirilən işlər:

1. 2026-cı il 16 sentyabr tarixində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin «Auditin inkişaf mərhələləri: uyğunluqdan strateji tərəfdaşlığa və etimada gedən yol» mövzusunda beynəlxalq elmi-praktik konfransın iştirakçılarına göndərdiyi təbrik məktubundan irəli gələn vəzifələrin icrasına dair Tədbirlər Planının layihəsinin hazırlanması (3-cü bənd: məsul şəxslər-Q.Əhmədov, Ə.Aslanov).

2. Azərbaycan Respublikası Auditorlar Palatasının fəaliyyətə başlamasının 30 illik yubileyi ilə əlaqədar əməkdaşların və üzvlərin fərqləndirilməsinə dair təkliflərin hazırlanması və rəhbərliyə təqdim edilməsi (4-cü bənd: məsul şəxslər-S.Gülməmmədov).

3. Palatanın əməkdaşlarına və üzvlərinə Dövlət təltiflərinin, təşəkkürnamələrin və digər təltiflərin müvafiq şəxslərin iştirakı ilə təqdim edilməsi (5-ci bənd: məsul şəxslər - S.Gülməmmədov, F.Qarayev, Z.Almazov, M.Hüseynova, N.İsmayılova).

4. Konfransa təqdim olunan məruzə və tezislərdəki təkliflər təhlil edilərək onların həyata keçirilməsi üzrə tövsiyələrin hazırlanıb rəhbərliyə təqdim olunması (15-ci bənd: məsul şəxs-Q.Əhmədov).

Auditorlar Palatasının
icraçı direktoru **Səbuhi Gülməmmədov**